Bakı İnzibati Məhkəməsi
Azərbaycan Respublikası

11.08.23.

**Bakı Apellyasiya Məhkəməsinə**
*Ünvan:* Bakı şəhəri, AZ-1073, A. Sultanova küçəsi 7.

**Apellyator:** Aydın Arif oğlu Əlizadə
*Ünvan*: Bakı şəhəri, AZ-1001, Y. İbrahimli küçəsi 7, mən. 7. Tel.: 0513549633, e-mail: alizadeh@mail.ru

(ŞV: AZE 15020739; FİN: 19AA301)
**Bakı İnzibati Məhkəməsinin** 2-1(112)-9880/2023 №-li işi üzrə 21.07.2023-cü il tarixli Qərarından

## APELYASİYA ŞİKAYƏTİ

21.07.2023 il tarixində, mənim (İddiaçı qismində) ərizəmlə ilə Bakı İnzibati Məhkəməsində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına (bundan sonra AAK) qarşı *"qərarın ləğv edilməsi və professor elmi adının alınması üçün vəsatətin icra edilməsinə dair cavabdehin üzərinə öhdəlik qoyulması"* tələbinə dair iddia üzrə (İş № 2-1(112)-9880/2023) Qərar verilmiş (hakim Bəhlul Cəlalov) və qaldırdığım iddia rədd edilmişdir. Lakin qanunvericiliyə zidd olmasına və Məhkəmə zamanı prosessual pozuntulara görə həmin Qərara razılaşmıram və ona qarşı etiraz edirəm. Etirazımın səbəblərini aşağıdakı mətnlə əsaslandırıram.

### 1. Qanunun geriyə işlədilməsi Konstitusiyaya ziddir

***a) Qərar Azərbaycan Respublikasının Konstitusiyasına (149, VII) ziddir***

*İddia Ərizəsində* mənim tərəfimdən göstərilmişdir ki, professorluğa iddia illərlə çəkən prosesin nəticəsində qaldırılır. Prosesin başlanğıc nöqtəsi elmlər doktoru dərəcəsinin alınmasından başlanır ("***Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"*** 3.1.2; 3.1.3; 3.1.4; 3.1.5.1). Bundan sonra tələblərə görə silsilə elmi konfranslarda iştirak, elmi dərgilərdə məqalələrin və monoqrafiyanın yazılması, mütəxəssislərin hazırlanması kimi mərhələlər vardır. Bu mərhələlər illər tələb edir. Təkcə mütəxəssisin hazırlanması, qanuna görə 4 il ərzində həyata keçirilir

(***“Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”*** 1.7). İllərlə görülən işlərə yeni qəbul edilmiş düzəlişin şamil edilməsi alimin həmin illərdə gördüyü bütün elmi fəaliyyətini pozur və gələcək fəaliyyətinə son qoyur. Buna görə ***“Əsasnamənin”*** 1.3. bəndinə 2022-ci ilin sonunda edilən düzəlişin mənim 12 illik elmi fəaliyyətimə şamil etmək ölkənin əsas Qanununu olan Konstitusiyanı pozmaqdır.

Qərara görə: *“Dəyişiklik edilənə qədər elmi ad üçün iddia prosesinə başlamış şəxslər barəsində hər hansı güzəşt, imtiyaz və ya istisna nəzərdə tutulmamış...* (səh. 7-8). Lakin ***Azərbaycan Respublikasının Konstitusiyasında*** (149, VII) bu barədə hərfi olaraq belə deyilmişdir: *“Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir”*. Göründüyü kimi, burada birmənalı göstərir ki, Əsasnaməyə edilən düzəlişdə hansısa bir güzəşt, imtiyaz və ya istisnanın olması ya olmamasından asılı olmayaraq qanunun geriyə qüvvəsi yoxdur. Beləliklə, Qərar ***Azərbaycan Respublikasının Konstitusiyasının*** göstərilən maddəsinə ziddir, bununla da verilən Qərar mənim insan, vətəndaş və alim hüquqlarımı pozub.

Həmçinin, Qərara görə *“Cavabdeh vəsatəti geri qaytararkən hazırda qüvvədə olan normativ hüquqi akta istinad edir”* (səh. 7-8). Burada məntiqi suallar yaranır: Məgər qanunların iyerarxiyasında həmin Əsasnamədən üstün olan ölkə Konstitusiyası və Elm Haqqında Qanun “*hazırda qüvvədə olan normativ hüquqi akt*”lar deyil? Məgər AAK Konstitusiya və Elm haqqında Qanuna riayət etməməlidir? Məgər AAK-ın alimin işinin qiymətləndirməsini təkcə Əsasnamədə yenicə qəbul olunmuş yarım cümləlik düzəlişlə edir ya qanunvericiliyin tamı ilə? Buna görə mövcud qanunvericilikdən söhbət gedirsə, buna təkcə Əsasnamə deyil, ondan yüksək olan bütün Normativ aktlar aiddir və hər bir təşkilatın borcu ***bütün qanunlara riayət etməkdir, hansısa subyektiv səbəblərlə özlərinə sərf edən seçmələrə yox***.

## 2. Qərar Elm Haqqında Qanununa ziddir

Konstitusiya ilə ziddiyyətdə olan Qərar avtomatik olaraq digər normativ aktlarında maddələrini pozur, çünki qanunlar bir birinə bağlıdır. Birinin pozulması obirilərinin də pozulmasına gətirir. Belə ki, 14 iyun 2016-cı il tarixində qəbul olunmuş ***Elm Haqqında Azərbaycan Respublikasının Qanununun*** 31-ci maddəsinə görə elmi işçilərin hüquqları aşağıdakılardır:

*31.1.4. elmi nəticələrə əsaslanaraq, elmi dərəcə və elmi ad almaq üçün müraciət etmək;*

*31.1.15. işlədiyi elmi müəssisə və təşkilatın tədqiqat istiqamətləri çərçivəsində və özünün elmi maraqlarına uyğun olaraq sərbəst tədqiqat istiqaməti və metodu seçmək.*

Mən, 2018-ci ildən AMEA Fəlsəfə və Sosiologiya institutunun “Sosiologiya” şöbəsinin baş elmi işçisiyəm. Sosiologiya elm sahəsi, işlədiyim İnstitutun tədqiqat istiqamətləridir və özümün elmi maraqlarıma uyğun olaraq onu sərbəst tədqiqat istiqaməti kimi seçmişəm. Həmin elmi işlərlə də Sosiologiya elm sahəsi üzrə professorluğa iddia qaldırmışam. Yəni 2016-cı ildə qəbul olunmuş və bu günə kimi qüvvədə olan qanuna uyğun hərəkətlər etmişəm. 2018-2022-ci illərdə Sosiologiya elm sahəsində fəaliyyət göstərəndə belə bilməzdim ki, 2022-ci ilin sonunda ***“Elmi adlar verilməsi qaydası haqqında Əsasnamənin”*** 1.3. bəndinə *“professor elmi adı elmi dərəcənin verildiyi elm sahəsində verilir”* sözləri əlavə ediləcək.

Bundan başqa, “***Elm haqqında Azərbaycan Respublikasının Qanununa***” görə dövlət qurumu olan AAK, alimin elmi fəaliyyəti stimullaşdırmalı (3.2.7; 6.0.13; 33.1; 38.2) və onun qarşısında süni maneələr yaratmamalıdır. Həmçinin, həmin ***Qanuna*** görə elmi fəaliyyətdə innovasiyaları (3.1.5; 3.3.14; 3.4.4), Azərbaycan elminin xaricdə təmsil olunmasını (3.2.8), azərbaycançılıq üzrə tədqiqatları (6.0.7) dəstəkləməlidir. Məhkəməyə təqdim etdiyim *Yazılı İzahatda* göstərmişəm ki, bütün bunlar mənim 12 illik fəaliyyətimdə var və buna görə bu maddələr, AAK tərəfindən qanunu geriyə şamil etməklə, pozulmuşdur. Bunu *Yazılı İzahatımda* Məhkəməyə bildirmişdim, lakin hakim, qərar verərkən buna heç bir əhəmiyyət verməmişdir.

## 3. Qərarda AAK tərəfindən mütəxəssisin elmi adının verilməsinin gecikdirilməsi faktı gizlədilmişdir

Məhkəmə qarşısında qaldırdığım *İddia Ərizəsində* qeyd etmişdim ki, AAK mənim tərəfimdən hazırlanmış mütəxəssisə elmi adı qanunla tələb edilən vaxt ərzində verilməmiş, onu gecikdirilmişdir. Buna görə də mən, ***“Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnaməyə”*** edilən düzəlişdən qabaq professorluğa iddia qaldıra bilməmişəm. Beləliklə, ***Azərbaycan Respublikasının Konstitusiyasına*** (68.III və 68.IV)[1], eləcə də ***“Azərbaycan Respublikasının Mülki Məcəlləsinə”*** (7.3)[2] görə AAK,

[1] 68.III. Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır;

dövlət qurumu kimi məsuliyyət daşıyır və mənim tərəfimdən həmin qurumun mənə vurulmuş zərərin ödənilməsini tələb etmək hüququm vardır. Bu məsələ mənim Cavabdehə qarşı iki əsas tələbimdən biri idi (birincisi qanunun geriyə şamil edilə bilməməsi haqqında idi). Lakin bu məsələ Qərarda yoxdur, sanki belə iddia olmamışdır. Belədirsə, deməli Qərarda Cavabdehi ifşa edən faktlar gizlədilmişdir, onlara dair hökm qəsdən verilməmişdir. Bu da Məhkəmənin və verilmiş Qərarın qeyri-obyektiv, Cavabdehə tərəfli, İddiaçıya (mənə) qarşı isə qərəzli olmasının sübutudur.

Bu məsələ 21.07.2023-cü ilin Məhkəmə iclasında mənim və vəkilim tərəfindən qaldırılmışdır. Cavabdehin nümayəndəsi bu barədə Məhkəməyə dolaşıq və saxta məlumatlar verərək prosesi yanlış istiqamətə çəkmək cəhdi etmiş, lakin bu cəhdlərin saxta olması bizim tərəfimizdən sübuta yetirilmişdir. Belə ki, AAK-ın Məhkəməyə təqdim etdiyi mənim İddia Ərizəmə *Etirazında* qeyd edilmişdir ki, mütəxəssisin təsdiqi əvvəlcə rədd edilmişdir. Lakin mütəxəssis bu qərarla razılaşmamış və işi Apelyasiyaya vermişdir. Apelyasiya Şurası AAK-ın rədd qərarını ləğv etmiş, ona elmi adın verilməsi haqqında qərar qəbul etmiş və AAK bunu bir ildən sonra təsdiq etmişdir. Halbuki qanuna görə təsdiq yarım ilin ərzində olmalı idi. Beləliklə, AAK-ın təqsiri üzündən müsəxəssis təsdiqini qanunla nəzərdə tutulduğu müddətdən yarım il gec almışdır və buna görə mənim vaxtında professorluğa iddiam baş tutmamışdır. Bunu AAK-a bildirsəm də heç bir nəticə əldə etməmişdim. Bu da Azərbaycan Respublikasının Konstitusiyasına görə mənə dövlət idarəsinin (AAK-ın) ziyan (zərər) vurmasıdır və həmin İdarə (AAK) buna görə məsuliyyət daşıyır. Burada “ziyan” (zərər) sözü Qərarda olduğu kimi maddi mənada işlənmir, elmi fəaliyyətə və elmi adın alınmasına aiddir.

AAK-ı Məhkəmədə təmsil edən nümayəndə isə mütəxəssisin işinə Apelyasiya şurasında baxılmaması haqqında saxta ifadə vermişdir. Halbuki AAK-ın Məhkəməyə verdiyi rəsmi *Etirazında* bu fakt təsdiq edilmişdir və o şəxs bu barədə məlumatlı idi. Lakin hakim bu məsələni sükutla qarşıladı, saxtakarlığa və Konstitusiyanın pozulmasına heç bir reaksiya vermədi, bu barədə xəbərdarlıq etmədi. Halbuki bilə bilə yalan ifadəyə görə Cavabdeh tərəf, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 297-ci maddəsinə görə məsuliyyət daşımalıdır və bu barədə xəbərdarlıq edilməli idi. Üstəlik Məhkəmə Qərarında da bu məsələ öz əksini tapmadı. Bu da verilmiş qərarın mənə qarşı qərəzli, Cavabdehə isə tərəfli olmasının bariz nümunəsidir. Beləliklə, Qərarda və

68.IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.

[2] 7.3. Mülki hüquq subyektlərinə ziyan vurarsa və ya onların vəziyyətini pisləşdirərsə, mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilməz.

Məhkəmə prosesində ***Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində*** (maddə 11) təsbit edilmiş qanun və məhkəmə qarşısında bərabərlik prinsipi pozulmuşdur. Həmçinin, Cavabdehin bilə bilə yalan ifadə verməsinə reaksiya verməmək Məhkəmə zamanı prosessual pozuntudur.

**4. Mənim tərəfimdən maddi ziyanın dəyməsi haqqında iddia qaldırılmamışdır**

Hakimin qərarına görə "*İddiaçı cavabdehin təqsiri ucbatından (ikinci mütəxəssisə elmi dərəcənin verilməsinin gecikdirilməsi səbəbindən) cavabdehin ona maddi ziyan vurmasını göstərmişdir ki, bu hazırkı iddianın predmeti deyildir*" (səh. 7).

Maddi ziyan çəkməyim haqqında nə yazılı sənədlərdə (*İddia Əriz*əsi və *Yazılı İzahat*), nə də Məhkəmə zamanı ifadələrimdə heç nə deməmişəm, heç bir iddia qaldırmamışam. Nədən hakim bu qərara gəlib, anlaşılmır. "Ziyanın vurulmasından" söhbət gedibsə, bu elmi fəaliyyətimə aiddir, maddiyata yox. Yəni AAK-ın hərəkətləri mənim elmi fəaliyyətimə ziyan vurub və bunu indi də yazıram. Beləliklə, bu məsələdə Məhkəmənin qərarı yanlış və həqiqətə uyğun olmayan əsaslar üzərində qurulub. Mənə aid olmayan ifadələr mənə aid edilib. Hakimin belə yanlışlığa yol verməsi onun işin mahiyyətinə varmadan səthi yanaşması, ya da Cavabdehə bilərəkdən tərəflikliklə izah etməkdən başqa yol qalmır. Buna görə verilən Qərarın qanuna uyğunluğundan və obyektivliyindən söhbət belə gedə bilməz. Bu fakt da ondan xəbər verir ki, Qərarda qanun və məhkəmə qarşısında bərabərlik prinsipi pozulmuşdur (İPM,11).

**5. Qərar Cavabdehin diskression səlahiyyətləri ilə izah edilə bilməz**

Hakim, *İddiamın* rədd edilməsinə dair əlavə olaraq cavabdehin diskression səlahiyyətlərinin olması dəlilini gətirmişdir (səh. 8). Lakin ***"İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanununun"*** 14-cü maddəsinə görə *"İnzibati orqan diskresion səlahiyyətlərini qanunla müəyyən olunmuş hüdudlar daxilində (qanunla ona verilmiş səlahiyyətlər daxilində) həyata keçirməlidir"* və *"diskresion səlahiyyətlər əsasında qəbul edilən qərarlar həmin səlahiyyətlərin məqsədinə uyğun olmalıdır"*. Mənim işimdə bu maddələr pozulmuşdur. Çünki həmin Qanunun 14.3 bəndinə görə *"diskresion səlahiyyətlərin həyata keçirilməsi zamanı fiziki və ya hüquqi şəxslərin hüquq və azadlıqlarının əsassız məhdudlaşdırılmasına yönəldilmiş qərarlar qəbul oluna bilməz"*. Mənim işimdə isə yuxarıda göstərilən ***Azərbaycan Respublikası Konstitusiyasında*** və ***Elm haqqında Azərbaycan Respublikası Qanununda*** təsbit

edilmiş hüquqlarım pozulmuşdur. Buna görə də AAK-ın diskresion səlahiyyətlərindən söhbət gedə bilməz, ümumi qanunvericiliyə tabe idi. Burada da hakim, Cavabdeh tərəfindən mənim hüquqlarımın pozulmasını təmizə çıxartmaq cəhdi edib, ona tərəfkeşlik edib. Bu isə yenə qanun və məhkəmə qarşısında bərabərlik prinsipi pozulmasıdır (İPM,11).

## 6. İşin mahiyyətinin məcburetmə haqqında iddiaya dəyişdirilməsi haqqında

Hakimin qərarına görə *“iddiaçı iddia ərizəsində inzibati aktın ləğv edilməsini xahiş etsə də, cavabdeh tərəfindən hər hansı bir inzibati akt qəbul edilməmişdir. Cavabdeh tərəfindən inzibati akt qəbul edilmədiyindən hazırkı iddia məcburetmə haqqında iddiadır. Yəni iddiaçı vəsatətə baxılaraq ona elmi adın verilməsini (inzibati aktın qəbul edilməsini) xahiş edir ki, bu iddia məcbuetmə haqqında iddiadır* (səh. 6).

Qərarın bu hissəsi ilə qismən razıyam. Çünki AAK mənim İddia Ərizəmə Etirazında etiraf etmişdir ki, mənim professorluğum haqqında AMEA Fəlsəfə və Sosiologiya institutunun Elmi şurasının Vəsatəti üzərində heç bir qanunla nəzərdə tutulmuş prosedur (hərəkət) həyata keçirməmiş, akt tərtib edilməmiş, dərkənar qoymamış, qeydiyyat aparmamış.

Lakin Məhkəmə İşinə başlamazdan və AAK-ın etirafından qabaq mən bunları bilə bilməzdim, çünki bu Cavabdeh öz daxili işləri haqqında heç bir məlumat vermir və bunu əldə etmək mənim üçün imkansız idi. Buna görə mən, ***“Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat***”ın 24, 90, 92, 93 və 128-ci maddələrini rəhbər tutaraq şübhə etməmişdim ki, həmin qanuni proseduralar (hərəkətlər) həyata keçirilib və akt tərtib edilib, çünki bunları etmək hər bir təşkilatın borcudur. Buna görə də işi “inzibati aktın dəyişdirilməsi” kimi adlandırdım.

Qərarın bu hissəsi ilə göstərdiyim şərtlə razılaşaraq hesab edirəm ki, hakim Qərarda ad dəyişmənin səbəbi kimi AAK-ın qanunla nəzərdə tutulmuş sənədlər üzərində prosedurların keçirilməməsini göstərməli və buna görə məsuliyyət daşıdığını qeyd etməli idi. Yoxsa belə çıxır ki AAK, daxil olan Vəsatət üzərində qanunla nəzərdə tutulan hərəkətlərin edilməməsində haqlı olub, mənim *İddiam* isə yanlış. Yəni aktın olmamasına görə AAK məsuliyyət daşıyır və kargüzarlıq haqqında Təlimatı pozaraq məni (İddiaçını) dolaşdırıb.

## Nəticə

*Qərarda* ***qismən razılaşdığım*** *bircə hissə var, bu da İşə yeni ad verilməsidir.* Lakin yeni adın verilməsi Cavabdehin "Kargüzarlıq haqqında Təlimatın" qaydalarını pozulması üzündən baş verib və buna görə onun məsuliyyət daşıdığı vurğulanmalı idi.

*Qərarın digər hissələri ilə, qanunvericiliyə zidd olmasına görə* ***razılaşmıram****.* Bu da dörd müddəadan ibarətdir:

**1.** Mənim tərəfimdən qaldırılan İddianın birinci hissəsi qanunun geriyə güvvəsi olmaması üzərində qurulub. Lakin Qərarda buna əlavə şərtlər qoyulur (səh. 8). Etirazım bundan ibarətdir ki, Azərbaycan Respublikasının Konstitusiyasına (149, VII) görə mənim işimdə qanunun geriyə şamil edilməməsi prinsipi universaldır, hər bir hallara aiddir və digər normativ aktlarda heç bir əlavə şərhə, istisnaya ehtiyac yeri qoymur. Buna görə Qərarın bu hissəsi Konstitusiyanın tələblərinə cavab vermir, mənim insan, vətəndaş və alim hüquqlarımı pozur, gələcək elmi fəaliyyətimə son qoyur.

**2.** AAK-a qarşı qaldırdığım İddianın ikinci hissəsi hazırladığım mütəxəssisə elmi dərəcə verilməsinin AAK tərəfindən gecikdirilməsi və buna görə Əsasnaməyə dəyişiklik edilməsindən qabaq professorluğa iddia qaldırmağımın imkansızlığından bəhs edirdi. Yəni AAK-ın təqsirindən mən vaxtında professorluq iddiası qaldıra bilməmişəm. Buna Qərarda yer verilməyib, bu məsələ sükutla qarşılanıb. Beləliklə, mənim İddiamın ikinci hissəsinə ümumiyyətlə baxılmayıb və bu barədə hökm verilməyib. Halbuki İddiaçının bütün iddiaları Qərarda əks olunmalıdır.

**3.** Qərara görə mənim tərəfimdən maddi ziyanın dəyməsi haqqında iddia qaldırılmışdır. Bu barədə mənim *İddia Ərizəmdə*, məhkəməyə verilən *İzahatlarımda* və proses zamanı ifadələrimdə heç nə yazılmayıb və deyilməyib. Buna görə Qərardaki bu sözlər mənə məxsus deyil. Deməli Qərarın bu hissəsi yanlış əsaslar üzərində qurulub və həqiqəti əks etdirmir. Həqiqəti əks etdirməyən əsaslar üzərində qurulmuş Qərar isə qanuna uyğun deyil və qəbuledilməzdir.

**4.** Qərarın digər hissəsində AAK-ın mənim professorluğuma dair verdiyi imtinanı onun diskression səlahiyyətləri ilə izah edilir (səh. 8). Lakin qanunvericiliyə görə diskression səlahiyyətlər fiziki şəxsin hüquqlarının pozulması ilə müşaiyət olunmamalıdır və belə olarsa qərarlar ümumi qanunvericiliklə verilməlidir.

Aşağıda verilən **Cədvəldə** 2-1(112)-9880/2023 №-li İş üzrə verilən Qərarda Qanunların pozulmuş maddə, bəndlər və yarımbəndlər göstərilmiş və qanunvericiliyin pozulmasının tərkibi qısa şəkildə şərh edilmişdir.

| № | Normativ aktlar | Pozulmuş maddə, bəndlər və yarımbəndlər | Qanunvericiliyin pozulmasının tərkibi |
|---|---|---|---|
| 1. | Konstitusiya | 149, VII | Qanunun geriyə şamil edilməsi |
| 2. | Konstitusiya | 68.III; 68.IV | Dövlət idarəsinin (AAK-ın) hərəkətindən fiziki şəxsin (mənim) zərər çəkməsi və hüququnun pozulması |
| 3. | Elm haqqında qanun | 31.1.4; 31.1.15. | Elmi təşkilatın istiqamətinə uyğun olaraq alimin elmi sahəsini sərbəst seçmək və elmi işlərinin nəticəsi olaraq elmi ad almaq hüququnun pozulması |
| 4. | Elm haqqında qanun | 3.2.7, 6.0.13, 33.1, 38.2; 3.1.5, 3.3.14; 3.4.4; 3.2.8; 6.0.7. | Elmi işçinin stimullaşdırmasına, eləcə də innovasiyaları tətbiq edib Azərbaycan elmini xaricdə təmsil edən alimə elmi ad verməklə dəstəklənməsinə Cavabdehi məcbur edilməməsi |
| 5. | Cinayət məcəlləsi | 297 | Məhkəmə prosesi zamanı Cavabdehin bilə bilə yalan ifadə verməsinə qarşı tədbir görülməməsi (prosessual pozuntu) |
| 6. | Kargüzarlığın aparılmasına dair Təlimat | 24, 90, 92, 93, 128 | Cavabdehin daxil olmuş Vəsatət üzərində qanunla nəzərdə tutulan prosedurların həyata keçirməməsi |
| 7. | İnzibati icraat haqqında Qanun | 14 | Diskresion səlahiyyətlər fiziki şəxsin hüquqlarını pozursa tətbiq edilə bilməz |
| 8. | İnzibati Prosessual Məcəllə | 11 | Qərar, Cavabdehin xeyrinə çoxsaylı qanun pozuntuları ilə verilmiş, məhkəmə qarşısında bərabərlik prinsipi pozulmuşdur |
| **Cəmi** | 6 | 23 | 8 |

**Xahiş**

Beləliklə Cədvəldən göründüyü və yuxarıda izah edildiyi kimi, 2-1(112)-9880/2023 №-li iş üzrə verilmiş Qərarda 8 tərkib üzrə 6 Normativ aktın 23 maddə, bənd və yarımbəndi pozulmuşdur. Buna görə verilən Qərar:

1. *Qanunvericiliyə uyğun olmamasına;*
2. *Həqiqəti əks etdirməyən əsaslar üzərində qurulmasına;*
3. *Mənə məxsus olmayan iddiaların mənə aid edilməsinə,*
4. *İddiamda qaldırılan əsas problemlərdən birini əhatə etmədiyinə;*
5. *Cavabdehi ifşa edən faktların gizlədilməsinə;*
6. *Qanun qarşısında bərabərlik prinsipinin pozulduğuna;*
7. *İnsan, vətəndaş və alim hüquqlarımın pozulduğuna*

görə mənim tərəfimdən **etirazla qarşılanır və qəbul edilmir**. Bu səbəbdən ***Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin*** 81-ci maddəsinə əsasən Apelyasiya Şikayəti vermək hüququmdan istifadə edərək

XAHİŞ EDİRƏM

**1.** Bakı İnzibati Məhkəməsində, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına qarşı "qərarın ləğv edilməsi və professor elmi adının alınması üçün vəsatətin icra edilməsinə dair cavabdehin üzərinə öhdəlik qoyulması" tələbinə dair iddia üzrə (İş № 2-1(112)-9880/2023) verilmiş qeyri-obyektiv, qanunvericiliyə zidd olan **Qərar tam olaraq ləğv edilsin** və həmin İş üzrə ədalətli və Azərbaycan Respublikasının qanunlarına uyğun yeni Qərar qəbul edilsin.

**2.** Eyni zamanda, Məhkəmədən xahiş edirəm ki, yeni qərarda mənim elmi nailiyyətlərim nəzərə alınsın. Mən, Azərbaycan elmini həm ölkə daxilində, həm də xaricdə təmsil edirəm. Professorluğa iddia etdiyim Sosiologiya elmi üzrə beynəlxalq səviyyədə tanınmış monoqrafiyanın müəllifiyəm, mənim elmi əsərlərimə xarici alimlər tərəfindən çoxsaylı istinadlar verilir. Bunları *Yazılı İzahatd*a bildirmişəm və sənədlər təqdim etmişəm. Gələcək elmi nailiyyətlər və Azərbaycan elmini layiqincə təmsil etməyim üçün fəaliyyətim stimullaşdırılmalıdır, Cavabdehin etdiyi kimi formal bəhanələrlə rədd edilib pozulmamalıdır.

Bu məhkəmə prosesini mənim alim həmkarlarım, xüsusən də gənclik izləyir. Mənim kimi elmi təmsil edən təcrübəli alimin elmdə xidmətləri rədd edilirsə, ona layiq

olduğu ad verilmirsə, onda deməli gəncliyin də keyfiyyətli işlər təqdim etmək həvəsi ölür Azərbaycan elminin gələcəyi sual altıma qoyulur. Bununla da elmdə formalizm, saxta alimçilik, dələduzluq və başqa neqativ hallar çoxalır. Bütün bunlar isə bütövlükdə Azərbaycan elmini çökdürür. Təəssüf ki, elmin inkişafını və alimlərin stimullaşdırılmasını təmin etməli olan AAK, hansısa subyektiv səbəblər üzündən inadkarlıqla və qanuna zidd olaraq mənim elmi fəaliyyətimi rədd edir.

Burada göstərdiyim çoxsaylı qanun pozuntularından məlum olur ki, AAK-ın mənim işim üzrə öz əməllərini qanunvericiliklə təmizə çıxarması cəhdləri ***riyakarlıqdır***. Onun tərəfindən onlarla qanun maddəsi pozulursa nə qanunçuluq? Deməli AAK-ın əməllərinin əsasında hansısa ***qanunlara zidd subyektiv amillər durur***.

Beləliklə, Bakı Apellyasiya Məhkəməsindən **xahişim budur ki**, yeni qərar verərkən elmi nailiyyətlərimi, gələcək elmi perspektivlərimi, ümumiyyətlə Azərbaycan elminin problemlərini nəzərə alsın; Azərbaycan aliminin pozulmuş hüquqlarını bərpa etsin, gələcəkdə keyfiyyətli və beynəlxalq səviyyəyə çıxacaq elmi fəaliyyətdən yayındırmasın, həvəsdən salmasın. Çünki alim AAK kimi dövlət orqanı tərəfindən biganəliklə qarşılanırsa, elmi nailiyyətlərinə baxılmırsa, stimullaşdırılmısa, formal bəhanələrlə subyektiv səbəblər üzündən rədd edilirsə, onun gələcəkdə keyfiyyətli fəaliyyəti imkansız olur, həvəsi ölür. Əslində bu kimi əməllər alimi təqib etməkdir. Bu da son nəticədə Azərbaycan elmini çökdürür, elmdə neqativ halların çoxalmasına gətirir. Xahiş edirəm yeni Qərar verəndə Azərbaycan elminin bu kimi ümumi problemlərini də nəzərə alasınız.

**Fəlsəfə elmləri doktoru, dosent** **Aydın Əlizadə**

14.08.2023